# II. Qarabağ: yaşayan tarixin təzadları

## 2. Yeni vaxt, yeni mübarizə yolu

*Cəmiyyətimizdə mənəvi ölçülər daraldıqca, dəyərlərə etinasızlıq artdıqca, pisliklər çoxaldıqca biz Qulu Məhərrəmli kimi dürüst və vicdanlı adamların varlığını daha aydın hiss edirik. Milli əxlaqımız məhz belə şəxsiyyətlərin hesabına öz varlığını qorumaqdadır.*

**Qəzənfər KAZIMOV, professor, Əməkdar elm xadimi**

Birmənalı demək olar ki, Qulu Məhərrəmli Qarabağ hadisələrini, eləcə də Qarabağ uğrunda siyasi mübarizənin bütün məqamlarını öz ürəyinin döyüntüləri kimi varlığında hiss edib. Elə bu səbəbdən də onu düşündürən hər hansı bir olay düşüncəsindən kardioqram yazısı kimi kağıza köçürülür.

Qulu Məhərrəmlinin şərti olaraq, Qarabağ mövzusunda yazdığı bütün ədəbi-publisistik, siyasi-publisistik materialları bir araya gətirən kitabını *"Qarabağ gündəliyi"* adlandırsaq, qətiyyən səhv etmərik. Çünki müəllif Qarabağı təkcə coğrafi miqyasda olan xəritənin bir hissəsi kimi düşünmür. O, Qarabağı bütövlükdə xalqın mənəvi mühitinin dəyərini özündə ehtiva etmiş etnokulturoloji hadisə kimi qavrayır. Bəzən insan düşüncəsinin müəyyən mövzu üzərində köklənməsini müəyyən siyasi, mənəvi maraqlar müstəvisində şərh edirlər. Amma Qulu Məhərrəmlidə Qarabağ mövzusu üzərində köklənmə sırf həyati önəm daşıyır. O, Qarabağ məsələsini, bütövlükdə Qarabağı aldığı nəfəs, içdiyi su, yediyi çörək qədər yaşamında, taleyində mühüm faktor bilir. Elə bu səbəbdən də mübarizənin mənəvi cəhətdən daha optimal, daha dəqiq variantlarının həmişə axtarışındadır. Onun düşüncəsinə görə dəyişən vaxt, dəyişən mübarizə üsulu tələb edir.

Bəlkə də hadisələrin ilkin başladığı zamanlarda Qarabağ folkloru, Qarabağın təbii şəraiti, qarabağlıların fərdi-psixoloji xüsusiyyətləri mübarizədə kara gəlirdi. Amma dəyişən dünyada, yeniləşən dünyada faktlara söykənən yeni mübarizə sistemi tələb olunur.

Azərbaycan ziyalısı olaraq Qulu Məhərrəmli axtarışlarını illər boyu davam etdirərək düşüncəni qidalandıracaq yeni təkliflər verir ki, bu təkliflərdən də diplomatlar, siyasətçilər yerinə görə, məqamına görə faydalana bilirlər. Bu mənada onun ümumxalq mənafeyi naminə mübarizə yolunu təqdir etməliyik.

Yazıçı publisistin, böyük politoloji düşüncə adamının axtarışlarının nəticəsi olaraq virtual Qarabağ mərkəzi yaradılması naminə çalışmaları da maraqlıdır. Əlbəttə, bu çalışmalar onun yazıları ilə reallaşır.

*"Gələcəyə ön söz"* kitabında Qarabağ mövzusunda hekayətlərin sıralanmasında yeknəsəqlik yoxdur, o hər yazısı ilə yeni bir motiv, yeni bir təklif irəli sürür. Əlbəttə, oxucuda maraq doğuracaq yeni hadisələr və faktlar əsasında.

*"Virtual Qarabağ" şikəstəsi"* hekayətinə diqqət edək. Müəllif bu hekayətin başlanğıcında yazıçı Yuri Pompeyevi bir daha xatırlayır. Ona görə *"bir daha xatırlayır"* deyirik ki, onun Yuri Pompeyevlə görüşünün maraqlı tarixçəsini, Qarabağ uğrunda mənəvi mübarizə istiqamətində yeni mükəmməl layihə hazırlamaq ideyasını şərh edən yazı ilə artıq tanışıq. Düzdü, həmin layihə icra olunmamış qalıb. Müəllifin özünün dediyi kimi Yuri Pompeyev də Azərbaycandan incik gedib. Amma Yuri Pompeyevin ziyalı fədakarlığı, Azərbaycana hörməti, məhəbbəti onu Qulu Məhərrəmlinin yaddaşında unudulmaz edir. Və beləcə, Yuri Pompeyevin daha bir məsləhətini xatırlamalı olur: *"90-cı illərin ortalarında sankt-peterburqlu yazıçı Yuri Pompeyev o vaxtlar AzTV-də apardığım "7 gün" proqramının qonağı olmuşdu. Həmin dövrdə yazıçının "Qarabağ qan girdabında" kitabı çox oxunurdu. Sadə, səmimi və ədalətli adam idi. "Azərbaycanın haqq səsi dünyada niyə eşidilmir" mövzusuna da toxunan müdrik yazıçının bir sözü hələ də qulaqlarımdadır: "Sizdə çox şey pərakəndədir, nə qədər ki Qarabağla bağlı bir elm mərkəziniz, koordinasiya olunan vahid informasiya bazanız, xaricdə lobbiniz yoxdur və hərənin ağzından bir avaz gəlir, təbliğatda uğur qazanmağınız çətin olacaq".* Az qala, 10 ildən çox vaxt keçib. Ancaq azərbaycanlı yazıçı, ziyalı həmkarları ilə Yuri Pompeyevin dəyərli düşüncələrini müdrikin əmanəti kimi yenidən yaddaş müstəvisinə gətirməklə yeni mübarizə üsulu ilə bağlı situasiyaya rəvac verir. Müəllif burada diqqətə çatdırır ki, hadislərin başlanmasından üzü bəri Qarabağla bağlı vahid informasiya mərkəzinin olmaması görülən işlərin faydalılıq dərəcəsinə mənfi təsir göstərib. Elə bu səbəbdən də o, hətta gecikmiş olsa belə Qarabağ informasiya mərkəzi və onun internet portalının yaradılmasını çox nikbin duyğularla qarşılayır. Və portalın necə işləyəcəyi, mərkəzin hansı əsaslar üzərində qurulması, daha çox yeni düşüncə adamlarını cəlb edərək çevik mexanizm yaradılması məsələləri ilə bağlı təkliflər verir. Bir sözlə, deyir ki, *"Virtual Qarabağ"* öz cazibədar milli şikəstəsi ilə avazı bütün dünyanı bürümüş erməni xorunu üstələmək üçün ən müasir texnologiyalara və yeni təfəkkürə əsaslanmalıdır. Doğru deyir, professor bilir ki, ən köhnə münaqişələrin həllində mübarizələrin yeni üsullara köklənməsi təsiredici ola bilər. Yazının sonluğunda daha maraqlı bir hadisəni təsvir edir. Epizod o dərəcədə mükəmməldir ki, mətni kəsib hansısa şərhi verməyə lüzum qalmır: *"İki həftə əvvəl Odessada bir media konfransında idim. Bu şəhərdə yaşayan həmyerlimiz, yüksək səviyyəli hüquqşünas, çalışdığı universitetdə böyük hörmət sahibi olan professor Mehman Dəmirli özünün yenicə çapdan çıxmış kitabını və bir də ukraynalı həmkarı A.Mereşkonun "Qarabağ problemi və beynəlxalq hüquq" kitabını mənə bağışladı. Sonuncu kitabı təyyarədəcə oxudum, müəllifin sistemli düşüncəsi, ümumiləşdirmə aparmaq qabiliyyəti, müqayisələri, məntiqi nəticələri, problemi dərindən bilməsi mənə çox xoş gəldi. Amma sonda verdiyi ədəbiyyat siyahısında bir nəfər də azərbaycanlının əsərinin olmaması, əvəzində erməni müəlliflərin dünyanın müxtəlif yerlərində çap edilmiş kitablarına gen-bol istinadlar məni təəccübləndirdi.*

***(Davamı 6-cı səhifədə)***

# 2. YENİ VAXT, YENİ MÜBARİZƏ YOLU

*(Əvvəli 5-ci səhifədə)*

*Bakıya gələn kimi tanıdığım bir neçə hüquq alimi ilə zəngləşdim. Cavablar qanqaraldıcı və utandırıcı idi. Sən demə, ayrı-ayrı müəlliflər bu mövzuda bir neçə məqalə çap etdirib, amma bu mövzuda araşdırma yoxdur. Təəccübüm bir az da artdı ki, bu necə ola bilər? Axı bizdə nə qədər hüquq institutları, nə qədər şöbə və kafedralar var. Hələ də hüquq məmləkətin ən nüfuzlu fakültəsi olaraq qalır. Sovet dövründə olduğu kimi, yenə də bu fakültəyə can atanların sayı ildən-il artır...*". Bununla da müəllif sözünü bitirir. Amma oxucu düşüncəsinə ,onun psixoloji mühitinə daha bir səfərbəredici zərbə vurur. Bircə kiçik, sadə cümlə ilə: *"Ortalıqda isə bir şey yoxdur"*. Professor bu yazını da 2013-cü ilin sonuna on gün qalmış qələmə alıb. Və hətta mətndən çıxan məntiqi nəticə paradoks kimi görünür. Necə ola bilər ki, az qala münaqişənin başlamasından 25 il vaxt ötür, bir azərbaycanlı müəllif Qarabağ problemini beynəlxalq hüquq müstəvisinə çıxaracaq mükəmməl bir əsəri ortaya qoya bilmir? Halbuki, hüquqşünas diplomunun cazibəsində nə qədər hüquqşünas var ki, rüşvətli vəzifəyə qoyulacağı günü gözləyir.

*"Qarabağ danışıqlarında "model" axtarışı". Və müəllif özünəməxsus ikinci yarımbaşlıqla dəqiq hökm verir: Model axtarışı "baş qatmaqdan və vaxt itirməkdən başqa bir şey deyildir"*. Doğrudur, vaxtı ilə Qulu Məhərrəmli özü də model axtarışında olub. Bir politoloq kimi siyasi prosesləri ardıcıl olaraq izləyərək Qarabağ probleminə bənzər problemlərin beynəlxalq səviyyədə necə həll olunduğuna faktlar əsasında münasibət bildirib. O, bu yöndən *"Aland"* variantını təhlil müstəvisinə çəkib. Amma zaman göstərdi ki, heç ermənilər özləri də Azərbaycanın ərazi bütövlüyü şəraitində bu variantı qəbul etmirlər. Halbuki, Azərbaycanın ərazi bütövlüyünün qorunması ilə Qarabağa yüksək status verilməsi təklifinin dəyərini sabiq Ermənistan prezidenti Levon-Ter Petrosyan da təqdir etmişdir. Erməni separatçıları, hakimiyyəti ələ keçirən Qarabağ quldurları yalnız bir məqsəd güdürdülər: Qarabağı Azərbaycandan qoparmaq məqsədi.

Çoxları belə düşünə bilər ki, bütün bunlar artıq tarixdir, Qarabağ problemi də Azərbaycanın siyasi və hərbi iradəsi ilə müəyyən mənada həllini tapıb. Ancaq tarixin elə bir səhifəsi yoxdur ki, o, gələcəkdə təkrar oluna biləcək təhlükə siqnalları göndərməsin. Ona görə də biz Qulu Məhərrəmlinin bu tipli yazılarını məhz gələcəyin ehtiyat intellekt bazası üçün təhlil edir, düşüncə xəzinəmizin ixtiyarına verməyi vacib bilirik: *"Qarabağ cəbhəsində avtomatlar şaqqıldasa da, sülh danışıqlarında diplomatlar mürgü vurmaqdadır. Sakitlikdir. Heç xarici işlər nazirlərinin Paris görüşü də sükutu poza bilməyib. Daha Qarabağ münaqişəsinin həllinə dair "yeni ideyalar"dan danışılmır. Münaqişənin çözümü dalana dirənib, irəliləyiş yoxdur. Danışıqlar prosesi iflasa uğramış kimi görünür. Ermənistan Rusiyanın ətəyindən yapışaraq başını girləyə-girləyə vaxt udur. Azərbaycan iqtisadi gücünü artırır, yeni silahlar alır. Xankəndindəki seperatçı rejim isə var gücü ilə "müstəqillik" tamaşası oynayır: bəyanatlar verir, xaricdən qonaqlar çağırır, "ordu"sunun silahlarını təzələyir, hərbi paradlar keçirir, konsertlər düzəldir"*. Necə də indiki bəziyyətə bənzəyir. Başlarına dəyən *"dəmir yumruq"*dan hələ yarım ayılmamış vəziyyətdə olsalar belə, nəticə çıxarmayan Qarabağın erməni quldurları bu gün Xankəndidə yalançı müstəqilliklərinin 30 illiyini qeyd etmək planlarını qururlar və öz planlarını gerçəkləşdirmək üçün Rusiyanın 50 metrlik bayrağını da reklam edirlər. Bax bu cür amillər bizi məcbur edir ki, Qulu Məhərrəmlinin Qarabağ gündəliyini birər-birər, səhifə-səhifə çevirək. Gələcəyə işıq sala biləcək bütün motivləri düşüncə müstəvisinə gətirək.

Qulu Məhərrəmlinin göstərdiyi faktlar sırasında bircə rus sülhməramlılarının Xankəndindəki yeniyetmələrə döyüş təlimi keçmək dərsləri görünmür. Amma az qala on il bundan əvvəl ermənilərin qurduğu teatr səhnəsi rus sülhməramlılarının sayəsində Xankəndində təzə tamaşalar hazırlamaqdadır.

Şimali İrlandiya, Cənubi Tirol modelləri yada salınır. Ancaq iş burasındadır ki, erməni faşistləri ağıllı heç bir təklifi qəbul etmək niyyətində deyillər. Dünən həmin modellər ağıllı görünə bilərdi, qəbul etmirdilər. Bu gün o modellər bizə də lazım deyil. Siyasi, hərbi gedişat Qarabağ üçün qanunauyğun model təklif edib, ermənilər istəsə də, istəməsə də. Qulu Məhərrəmlinin təbirindən istifadə ilə desək, iki ayaqlarını bir başmağa nə qədər dirəsələr də.

*"Krım böhranı Qarabağın sonudurmu?"* – bu yazı bir çox cəhətdən maraqlıdır, xüsusilə hələ də nəyəsə ümid edənləri ayıltmaq baxımından...

Dünyanın siyasi mənzərəsini çevik düşüncə nəzərləri ilə izləyən Qulu Məhərrəmli Qarabağ problemini yada salacaq hər hansı məsələdən yan keçmir.

Hamımızın yaxşı yadındadır ki, Krım ilhaq olundu. Rusiya Krımı dünyanın gözü qarşısında zəbt elədi. Və belə bir vəziyyət həm də bizim üçün görk oldu ki, ayrı-ayrı xarici qüvvələrin, xüsusilə bizə zidd olan xarici qüvvələrin vasitəçiliyi ilə çətin ki, Qarabağ problemi həll olunsun. Krım böhranı ilə bağlı yazısına Q.Məhərrəmli ikinci yarımbaşlıq da verir: *Rusiya prezidentinin yırtılan maskası və püskürdüyü təhlükələr haqqında"*. Doğrudur, bu yarımbaşlıqda bir qədər radikallıq var. Ancaq neyləyəsən ki, baş verən hadisələrin axarı Rusiya siyasətinin zirvəsində duranların mənəvi mühitini güzgü kimi göstərir. Onlar dünyanı ədalətlə idarə etmək missiyası ilə yerə gələsi olan mələkləri belə qəbul etməzlər. Krım böhranı ilə bağlı Q.Məhərrəmlinin bu yazısında giriş hissəsinin özü də çox mətləblərdən xəbər verir: *"Özümüzü nə qədər soyuqqanlı aparsaq və Ukrayna hadisələri ilə bağlı cınqırımızı çıxarmasaq da qapının ağzını kəsmiş təhlükəni duyuruq. Moskvanın Krımda alovlandırdığı separatizm, Ukraynanın ərazi bütövlüyünə etdiyi qəsd onsuz da dərdinə əlac tapılmayan Qarabağ problemini yenidən qırx arşın quyunun dibinə salmaqdadır. Dünyanın gözü qarşısında, artıq bizə tanış olan ssenari oynanılır. Bu ssenarida gedişlər, motivlər ssenarist davranışlar çox oxşardır, çünki təhlükə saçan tamaşanın dirijoru eynidir: Moskva!"* Vəziyyətin belə gərgin xarakter alması təsadüfi deyil. Publisist məcburiyyət qarşısında günahkarın bir-başa adını çəkir. Bu adı *"Moskva"* deyə ifadə edir. Çünki hadisələrin hamısının idarəetmə pultu Moskvanın əlindədir. Ayrı-ayrı bölgələrdə alovlandırılan separatizm əslində, separatçıların özlərinə yaxşı heç nə vəd etmir. Daim təhlükə altında yaşamaqla psixoloji cəhətdən şikəst olur, dolanışıqlarını itirir, bir növ dünyadan təcrid vəziyyətinə düşürlər. Əslində, elə separatizmi alovlandıranlara da bu vəziyyət sərf eləyir. Vaxtilə A.Nekrasovun *"Çirkli Rusiya"* epiteti ilə damğaladığı ölkəsinin - az qala iki əsrə yaxın zaman ərzində üzərinə yağan yağışlar onun *"çirkini"* təmizləyə bilməyib. Rusiya iqtisadi cəhətdən daha dünya ilə rəqabət aparmaq gücündə deyil. Ancaq hərbi gücünə güvənərək özünün *"həqiqətlərini"* diktə etmək yolundan da əl çəkmir. Siyasi şərhçinin Rusiya siyasətini cəngəllik qanunları ilə müqayisə etməsi də artıq mövcud vəziyyətin özünün gətirdiyi obrazdır və həm də təsadüfi obraz deyil.

Tarix bizə tariximizə qəddar münasibətinə görə fərqlənən iki qonşu qismət edib. Bunun biri Rusiyadır, digəri İran. Erməniləri bu ikiliyin yanına qatmaq istəmirəm. Çünki onlar həmişə güclülərin əlində vasitə olub. Bu gün də idarə olunan robot qismində görünürlər. Söz yox, Krım məsələsi bir çox cəhətdən bizim üçün həm tarixi, həm müasir yanaşma ilə maraqlıdır. Əvvəla, Krımın tarixi, Krım tatarlarının faciəsi bizim ümumilikdə yaralarımızın göynəyən tərəfidir. Azərbaycanın indiki durumunda Krımla bağlı münasibəti necə qavraya bilərik? Qulu Məhərrəmli isə mətnin sonunda yazır: *"Ukrayna hadisələrinin bizim üçün ən pis epizodu Qarabağ problemi ilə bağlıdır, çünki Krım müstəqil olsa da, Rusiyaya birləşsə də, dünyada seperatizmin güclənməsinə yeni təkan olacaq. Odur ki, siyasi səhnədə ölü vasitəçi kimi baş girləyən Minsk qrupunun amerikalı həmsədri C.Uorlik Krımdakı hadisələrin Qarabağ probleminin həllinə mənfi təsiri ilə bağlı ümidsiz fikirlərini artıq açıq şəkildə özünün tviter səhifəsində paylaşır"*. Lap sonluqda isə Q. Məhərrəmli *"bir rus sərsəminin – V.Jirinovskinin "Qarabağı da Rusiyaya qataq" çağırışına tələsik zarafatı kimi baxmayın"* – deyə xəbərdarlıq edir.

Professor Qulu Məhərrəmli mövzunu *"Ukraynada Qarabağ ssenarisi"* başlığı altındakı yazı ilə davam etdirir. Bu yazıda Ukrayna və Rusiya çəkişmələri, Şimali Osetiya, Abxaziya, Dnestryanı bölgə və, o cümlədən Rusiyanın Qarabağa münasibəti məsələsi aydınlaşdırılır. Şübhəsiz, Qulu Məhərrəmli Rusiyanın həmin bölgələrlə bağlı mövqeyini şərh edərkən, hələ tam üzə çıxmamış Qarabağ iddiası niyyətinə də işıq salır. Bu gün Rusiya sülhməramlılarının Qarabağda sahibkarlıq mövqeyində özünü göstərmə cəhdləri təcrübəli politoloqun vaxtı ilə verdiyi dəqiq proqnozların nəticəsi kimi diqqəti cəlb edir: *"Münaqişələr Rusiya siyasətinin əsas qidası, onun çörək ağacı, bu ölkənin mövcudluq formasıdır. Ətrafındakı münaqişələr olmasa, Rusiya yaşaya, bir dövlət kimi özünü ifadə edə bilməz. Moskva buna görə əli çatan yerlərdə "beşinci kolon"lar saxlayır., Qarabağı, Şimali Osetiyanı, Abxaziyanı, Dnestryanı bölgəni buna görə əzizləyir. Baxın, Qarabağ Ermənistanı bir dövlət kimi iflic edib, müstəqilliyini əlindən alıb, onu Rusiyadan tam asılı vəziyyətə salıb. Proseslər göstərir ki, Azərbaycanın da müstəqilliyi üçün təhlükə sovuşmayıb, "sülhməramlı qüvvələr" adı altında burada yenidən öz ordusunu yerləşdirməyə çalışan Moskva başımızın üzərində "Domokl qılıncı" kimi asılıb. Nə qədər ki, Azərbaycanda Rusiyanın istəkləri reallaşmayıb, bölgənin rus təhlükəsindən etibarlı hərbi müdafiəsi yoxdur, Qarabağ münaqişəsi həll olunmayacaq. Ona görə də münaqişənin ATƏT Minsk qrupunun himayəsinə keçməsi heç nəyi dəyişmədi. Bu qrupda ABŞ və Fransanın da həmsədrliyinə baxmayaraq söz sahibi yenə Rusiyadır. Amma indi bir şey aydındır ki, Qərb və bütün dünya Qarabağ probleminin mahiyyətini çox dəqiq anlayır: Ermənistanın ərazi iddiaları, ermənilərin öz müqəddəratını təyinetmə istəkləri boş şeydir, ortada yalnız Rusiyanın bölgəyə nəzarət iddiası var"*. Bu iddia isə günümüzə qədər davam edir. Hətta II Qarabağ savaşından sonrakı zaman üçün də davam etməkdədir.

Qulu Məhərrəmlinin Qarabağ gündəliyini izlədikcə onun hadisə və faktlara necə məsuliyyətlə yanaşmasını, gələcək haqqında verdiyi proqnozların dəqiqlik ehtimalını, yəni bu proqnozların reallaşmaq imkanlarını necə əsaslandırdığını da görmək çətin olmur.

Mənim düşüncəmə görə, siyasi publisistika diplomatiyanın ən dəyərli fikir qaynağıdır. Bu baxımdan Qulu Məhərrəmlinin siyasi publisistik hekayətləri xüsusi əhəmiyyət kəsb edir.

... Daha çox siyasi motivlər üzərində köklənmiş yazıları həm də bədii siqlətinə görə "hekayət" adlandırmağımı da oxucunun başa düşəcəyi qənaətindəyəm.

*02.09.2021*